





# Cəsur döyüşçü

**İmişlidə şəhidlərimizin, Vətən müharibəsində adlarını hərb tariximizə qızıl hərflərlə yazdıran igid oğullarımızın xatirəsi əziz tutulur. Vətən uğrunda canından keçən oğul və qızlarımız, onların ailələri daim yad olunur. Şanlı Zəfər yürüşündə qəhrəmanlıq göstərərək canından keçmiş şəhid oğullarımızdan biri də Teymurov Şaiq Vidadi oğludur.**

Yaşasaydı, bu gün qələbə sevincini və doğum gününü öz ailəsi ilə birlikdə qeyd edəcəkdi. Şaiq Teymurov 1992-ci il noyabrın 6-da İmişli rayonunun Aranlı kəndində anadan olub. Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Sentyabrın 29-da Füzuli istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

İmişli Rayon İcra Hakimiyyətinin məsul əməkdaşları, hüquq-mühafizə orqanlarının rəhbərləri, məktəblilər və şəhidin yaxınları tərəfindən Şaiqin məzarı ziyarət olunub, üzərinə gül-çiçək dəstələri düzüldü. Tədbir iştirakçıları Qəhrəman şəhidimizin doğulduğu Aranlı kənd qəbiristanlığı yanında adını əbədiləşdirən bulaq kompleksi də açıldı. Açılış mərasimində çıxış edənlər şəhidimizə Allahdan rəhmət, ailəsinə səbir dilədilər. Vurğulandı ki, bu gün dövlət səviyyəsində şəhid ailələrinə, qazilərimizə böyük diqqət və qayğı göstərilir. Azərbaycan xalqının qüruru, fəxri olan şəhidlərimizin, Şaiq Teymurov kimi oğullarımızın xatirəsi daim əziz tutulacaq. Tədbirdə məktəblilərin iştirakı ilə şəhidlərimizə həsr olunmuş şeirlər səsləndirilib.



Şəhidin ailəsi dövlət tərəfindən onlara göstərilən diqqət və qayğını hər zaman hiss etdiklərini, bu qayğını yüksək qiymətləndirərək Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirdilər.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirakına, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Teymurov Şaiq Vidadi oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

Respublika.- 2021.- 20 noyabr.- S.13.